


*Şəhidlər xiyabanı*

# Tarixin yaddaşında nələr yatır...

**Zaman yalnız dövlətlərin, ölkələrin deyil, cəmiyyətlərin, insanların, hətta şəhərlərin, bəzən küçələrin, döngələrin, lap kiçik bir torpaq payının da taleyilə oyunlar oynayır. Bəzən həmişə xoş duyğularla xatırlanacaq, bəzən də kədərli... Beləcə, bir hekayə, nağıl, dastan yaranıb tarixin səhifələrinə köçür...**

...Şəhidlər xiyabanı. Bakının ən hündür yeri. Oradan baxanda sanki bütün şəhər, Xəzərin özü də ayaqlarımızın altında qalır. Bu ad ona 35 il əvvəl verilib. 1990-cı il yanvarın 20-də Bakının küçələrində sovet qoşunları tərəfindən qətlə yetirilən günahsız insanlar burada dəfn olunanda. Onların əbədi məskəninə çevrilib bu məkan. Sonralar torpaq uğrunda canını fəda edən oğul və qızlarımız da buradakı şəhid məzarlığında dəfn olunub, narahat ruhları bu böyük xiyabanda rahatlıq tapıb.

Şəhidlər xiyabanı. Səsin sükutu... Bu sükut nisbidir, əslində, hər məzar daşı öz hekayəsini söyləyir, səssiz, səmirsiz. Qulaq kəsilirsən, bu müqəddəs məkanın da acı tarixçəsini pıçıldayır bu daş məzarlar.

Qara Yanvar və Qarabağ müharibəsi şəhidlərinin dəfn olunduğu bu kütləvi məzarlıq, yəni Şəhidlər xiyabanı əslində məzarlıq üzərində salınıb. Belə ki, vaxtilə, daha dəqiq desək, Azərbaycan Xalq Cümhuriyyəti dövründən 1939-cu ilə qədər bu ərazidə Çəmbərəkənd qəbiristanlığı olub. Burada bir



sıra tanınmış şəxslər, o cümlədən Azərbaycan tarixində yer tutan görkəmli şəxsiyyətlər, Əlirza Rasizadə, Səməd bəy Mehmandarov, Cəlil Məmmədquluzadə, Midhət Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Hüseyn Ərəblinski, Ağa Musa Nağıyev, Süleyman Sani Axundov, Cabbar Qaryağdıoğlu, Rüstəm Mustafayev və digərləri dəfn edilmişdi. 1918-ci il Mart soyqırımı qurbanlarının çoxu da burada uyuyurdu.

1934-cü ildə Azərbaycan xalqının qatı düşmənlərindən biri, sovetlərin ən fəal nümayəndəsi uzun illər Azərbaycan Kommunist Partiyasının rəhbər işçilərindən olmuş Sergey Mironoviç Kirov öldürüldükdən sonra onun xatirəsini əbədiləşdirmək üçün Çəmbərəkənd qəbiristanlığı dağıdıldı və onun yerində istirahət parkı salındı. Parkın ən yüksək yerində isə S.M.Kirovun abidəsi ucaldıldı. Ən acınacaqlısı isə budur ki, sovet hakimiyyəti parkın salınması zamanı daha bir cinayət törətdi. Daş çatışmazlığı problemi ilə üzləşən icraçılar dağıdılmış məzarların başdaşılarından belə istifadə etdilər. Tarixindən, xalqının başına gətirilən faciələrdən bixəbər olan insanlar isə uzun illər Dağüstü parkda fəaliyyət göstərən kafe və restoranlarda, istirahət yerlərində həyatlarının ən mühüm məqamlarını qeyd etdilər, dincəlib əyləndilər. Yaşlılar öz övladlarına, nəvələrinə sovet quruluşunun xalqlara, o cümlədən Azərbaycan xalqına da azadlıq, hürriyyət, xoşbəxtlik gətirdiyindən bəhs etdilər. 71 il beləcə davam etdi. Kirovun "əzəmətli" heykəli də and yeri oldu. Ancaq ilahi ədalət bu "xoşbəxtliyi" sovetlərə "çox gördü". Əsl azadlığın şirinliyini bir zaman dadan xalq müstəqilliyini bərpa etdikdən sonra Kirovun heykəlinin aqibəti başqa cür oldu, onun az qala bütün Azərbaycanın başı üzərindən uzaqlara uzadılmış qolu qırılıb yanına düşdü. Böyük bir imperiyanın süqutu onların arzularını gözlərində qoydu.

O günə, o anlara isə xalqımız uzun-uzadı yol gəldi, faciələr yaşandı. XX əsrin sonlarında ittifaqa daxil olan digər müttəfiq respublikalar kimi, Azərbaycan da öz müstəqilliyi uğrunda mübarizəyə başladı. Çox çətin dövr idi. Qarabağda baş verən hadisələrə, ermənilərin torpaq iddialarına etiraz əlaməti olaraq mitinqlər, tətillər gündən-günə geniş vüsət alırdı. Artıq münaqişə zəminində başlayan hadisələr böyüyərək müharibə həddinə çatmışdı. Qərbi Azərbaycandan, Qarabağdan azərbaycanlılar zorla çıxarılır, əzab və işgəncələrə məruz qalırdılar. Bununla əlaqədar Bakıda da vəziyyət çox gərginləşmişdi. 1989-cu ilin dekabrında Qərbi Azərbaycandan son azərbaycanlı da qovuldu. Qaçqınlar arasında yaralılar da çox idi və onlar Bakının müxtəlif xəstəxanalarına yerləşdirilirdilər. Xalqın etiraz səsi artıq daha çox ucalırdı. Məhz onları susdurmaq üçün sovet rəhbərliyi Bakıya təpədən-dırnağadək silahlandırılmış qoşun yeritdi. 1990-cı il yanvarın 20-də böyük bir faciə yaşandı. Sovet qoşunlarının əliyalın, dinc əhaliyə qarşı təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürüldü, 600-dən çox adam yaralandı. Öldürülənlər arasında 20-dən çox qadın və uşaq da var idi. Bütün xəstəxanaların tibbi personalı səfərbər olunmuşdu, ölənləri, yaralıları yerləşdirmək, onlara lazımi tibbi yardım göstərmək üçün gecə-gündüz fasiləsiz işləyirdilər.

Elə ilk andan müstəqillik uğrunda şəhid olmuş insanların indiki Şəhidlər xiyabanında dəfn olunması məsələsinin müzakirəsinə başlanılmışdı. İctimaiyyət tərəfindən yaradılmış dəfn komissiyasına elmlər doktoru Azər Nəbiyev sədrlik edirdi. İlk mərhələdə onun məsələnin həlli ilə bağlı respublika və şəhər rəhbərliyinə etdiyi müraciətə müsbət cavab verilmədi. Bundan sonra Azər Nəbiyev ovaxtkı 26 Bakı Komissarları adına rayonun Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Əli Məmmədova müraciət etdi və onlar bir çox insanın iştirakı ilə Dağüstü parka gəlib bəzi yerlərə baxış keçirdilər. Sonda şəhidlərin hazırda dəfn olunduğu yer məqsədəuyğun hesab edildi. Yerin seçilməsində memar Nəriman Əliyevin məsləhətləri nəzərə alındı.



Yanvarın 21-də Azərbaycan SSR Ali Sovetinin iclası keçirildi. Gərgin şəraitdə, qızğın müzakirələrlə keçən iclas səhər saat 6:00-a qədər davam etdi. Saat 12:00-da şəhidlərin cənazələri insanların çiyinlərində Azadlıq meydanından izdihamla paytaxtın küçələrindən keçməklə indiki Şəhidlər xiyabanına gətirildi. Dəfn mərasimi 5 saat çəkdi. Yanvarın 21-də 51 nəfər dəfn olundu. Bunlardan 3 nəfəri 1918-ci il Mart soyqırımı zamanı şəhid olanlar idi. Onların qalıqları yeni məzarlar qazılarkən üzə çıxmışdı və adət-ənənəyə uyğun şəkildə təkrar, İlham və Fərizədən sonra dəfn edildilər. Hər üç məzarın üstündə "1918-ci il şəhidləri" sözləri yazıldı. Sonra təzə qəbirüstü abidələr qoyulanda isə həmin məzarların üstündə "Naməlum" sözü həkk edildi. Hazırda Şəhidlər xiyabanında 159 məzar var. 159 məzar, 159 nakam tale. Əsrimizin sevgi dastanını yazan İlham və Fərizənin qoşa məzarını ziyarət edib irəli gedirsən, məktəbli Larisanın, balaca İlqarın çöhrəsindəki təbəssüm tikan kimi ürəyimizə batır. Beləcə, sükut içində addımlayır, naməlum məzarlarda uyuyanların taleyinə daha çox acıyırsan (Qeyd edək ki, burada 4 naməlum, bir şəkilsiz məzar var). Sıranın sonuna çatır, başını qaldırıb baxırsan: "Əbədi məşəl" abidə-kompleksi.

1998-ci il oktyabrın 9-da açılışı olan bu abidə səkkizguşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir. Bakının azad olunması zamanı şəhid olmuş azərbaycanlı və türk əsgərlərin xatirəsini əbədiləşdirmək üçün baş memar Zivər bəy Əhmədbəyov Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər xiyabanı) ucaldılacaq abidə-kompleksinin layihəsini hazırlamışdı. Altıbucaqlı türbə görünüşündə olan həmin layihədə orta əsr Azərbaycan memarlıq incilərindən məharətlə istifadə olunmuşdu.

Şəhidlər xiyabanı. 35 ildir ki, insanlar buraya axın edir, ilin-günün istənilən vaxtında. Məzarların üstündən qırmızı qərənfillər əskik olmur. İndi bu məzarlıqda yatanlar daha rahat uyuyur, ruhları qalib məmləkətimizin hər yerində azad şəkildə dolanır. Çünki tökülən qanları yerdə qalmadı...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**